# ŞƏKİ İSTEDADLARINDAN BİRİ



*Əhsən Rəhmanlı tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

Tarixən Şəki mahalında istedadlı adamlar yetişmişdir. Şəki musiqiçilər diyarı kimi də tanınır. Azərbaycanın instrumental musiqisində Şəki qarmonçalanlarının da xüsusi yeri var. Bu sırada Şamil Mustafayev, Ramiz Sadıqov, Zair Mustafayev, Rövşən Mustafayev, İlqar Kərimov və başqalarının adını dərin hörmətlə çəkirik. "Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi" (Bakı, MBM, 2014, 704 s.) adlı kitabda Şəki qarmon ifaçılarının da həyat fəaliyyətini əhatə edən mövzulara yer vermişik.

İstər Bakı, istərsə də Şəki musiqiçilərinin dilindən İlqarın tam peşəkar və yüksək səviyyəli ifaçı olması barədə çox eşitmişdim. Son dövrlərdəki yaxın münasibətlərimizdə bunun şahidi oldum. O, uşaqlıq illərində istedadı və bacarığı, gənclik illərində xüsusi məharəti ilə yaxşılar sırasında olmuş və nəhayət mükəmməl qarmon ifaçısı kimi özünü təsdiq etmişdir.

İlqar Abdulkərim oğlu Kərimov 1960-cı il avqustun 21-də Şəki şəhərində anadan olub. Abdulkərimin babası Əkbər Ağa Musa oğlu (1881-1955) Qori seminariyasını bitirmişdi, XIX əsrin ikinci yarısı və XX əsrin birinci yarısında Şəkidə ipək fabrikinin sahibi idi. Həmin fabrikin istehsalı çox yerə, o cümlədən xarici ölkələrə gedirdi. Əkbər Ağa böyük nüfuz sahibi olaraq geniş xeyriyyəçilik fəaliyyətilə də tanınırdı. Fabrik Şəkidəki məşhur Bağbanlar adlanan məhəllənin yaxınlığında idi. Bu bağda hər cür meyvə yetişdirilirdi. Əkbər ağa həmin bağın meyvələrini fabrikin fəhlələrinə və Şəkidəki imkansız ailələrə paylatdırırdı.

İlqarın anası Rəfiqə Məmmədsadıq qızı Kərimova 1968-2000-ci illərdə Şəki Mədəniyyət Şöbəsinin Gənclər Klubunun müdiri vəzifəsində çalışıb. Bu işgüzar qadın işlədiyi yerlərdə xeyli səmərəli işlər görüb. O, Gənclər Klubunda ilk əvvəllər musiqi dərnəkləri açıb. Uzun illər ərzində bu dərnəklərdə böyük musiqiçilər yetişib. R.Kərimova 2000-2008-ci illərdə Şəki Ziyalılar Evinin direktoru olub. Xidmətləri nəzərə alınaraq Rəfiqə xanım Kərimovaya əməkdar mədəniyyət işçisi fəxri adı veriləcəkdi, lakin, 2008-ci ildə o, dünyasını dəyişib.

Dünyaya istedadla gələn İlqar 6 yaşı olarkən valideynlərinə qarmon çalmaq həvəsində olduğunu bildirib. Onun təkidi qəbul olunmur. Ata-ana haqlı düşünürdü ki, uşaq hələ balacadır, qarmona gücü çatmaz. Bu zaman uşağın nənəsi Sura Əkbər Ağa qızı Kərimova (ər soyadıdır, 1912-1971) uşağa qəhmər çıxıb deyir: "Uşağı niyə ağladırsınız ey, qarmon istəyir alın da". Qarmon evə gətirilən kimi çox sevinən İlqar alətin qutusunu açıb götürmək istəsə də gücü çatmır. Bunu görən Sura nənə qarmonu götürür və çalmağa başlayır. Sura xanımın ifası İlqara möcüzəli gəlir və həvəsi daha da artır. Sura nənə sadə, yarımtonlara toxunmadan, sadə havalar ifa edirdi. O, sevimli nəvəsinə, İlqara deyir ki, uşaq vaxtı nənəm də ərganım olub (müasir qarmonun əjdadı ərğan olub, odur ki, Sura xanımgül uşaq olanda qarmona yaşlı adamlar ərğan deyirdilər-Ə.R.)

***Haşiyə:*** "Sura xanım Əkbər Ağanın qızı idi. O dövrlərdə kübar ailələrdə uşaqların musiqi zövqünün, ifa etmək qabiliyyətinin də qaydına qalırdılar. Uşaqlar hansı musiqi alətindəsə ifa etməli idilər. Sura xanım qarmon ifa etmək qaydalarına yiyələnmişdi".

Mətləbə qayıdaraq bildiririk ki, qarmona çətinliklə gücü çatan 6-7 yaşlı İlqar az vaxtda xeyli göstərici əldə etmişdi. Belə ki, o, müəllimdən dərs almadan xalq mahnılarını və rəqs havalarını sərbəst olaraq özü öyrənib çalmağa başlamışdı. Nənə-bala evdə bir-birinin həvəsinə qarmon çalırdılar. Sura nənə nəvəsini o ki, var tərifl ərdi. Evdəkilər İlqarın bacarığını nəzərə alıb musiqi dərnəklərinə getməsinə icazə vermişdilər. Beləliklə onun ilk sənət müəllimi Şəkidə tanınan kamançaçalan, bu ixtisas üzrə dərs deyən Nurəddin Bədəlov oldu.

İlqar Kərimov 1967-1975-ci illərdə Şəki şəhərindəki 2 saylı məktəbdə natamam orta təhsilə yiyələnib. Həmin məktəbi fərqlənmə (qırmızı şəhadətnamə) ilə bitirib.

Musiqi dərnəyində İlqar öz həvəsi və istedadı ilə yoldaşlarından fərqləndiyi üçün müəllimlərinin diqqətində idi. O, 1970-ci ildə 10 yaşında ikən rayon səviyyəsində keçirilən rəsmi tədbirdən sonra verilən konsertdə ilk dəfə çıxış edərək hamının sevimlisinə çevrilmişdi. Həmin konsertdə məşhur bəstəkar Cavanşir Quluyevin anası Tavat xanım səhnəyə çıxaraq İlqarın əlini göyə qaldırıb demişdi: "Baxın, bu uşaq böyük musiqiçi olacaq". Rayon musiqi ictimaiyyəti də artıq onunla maraqlanırdı. 12 yaşında olarkən İlqarı tez-tez Bərdə şəhərinə toylara aparıb bu bacarıqlı uşağın ifalarına böyük maraq göstərirdilər. İlqar 1974-cü ildə, 14 yaşında ikən artıq peşəkar musiqiçilərlə birlikdə ansambllarda çalır, onlara qoşulub konsertlərə, toylara gedir, məharət göstərərək tanınır və rəğbət qazanırdı. O, tədricən muğamlara da həvəs göstərir və öyrənirdi. Musiqi dərnəklərində ona öyrədilən muğamlarla kifayətlənmir, qrammafon vallarını, audio kassetləri, radio konsertlərini dinləyirdi. Hər bazar günü saat 14.00-da Azərbaycan radiosunun birinci proqramıyla verilən muğamat konsertinə həvəslə qulaq asırdı. İlqar 16 yaşından ətraf rayonlara da toylara gedirdi.

İ.Kərimov 1975-1978-ci illərdə Şəkidəki 43 saylı texniki-peşə məktəbində təhsil alarkən burada ansambl yaratmış və ona bacarıqla rəhbərlik etmişdi. Həmin illərdə onun təşkilatçılıq və yaradıcılıq qabiliyyəti də üzə çıxmışdı. O, artıq Şəkidə özünü yaxşı musiqiçi və qarmonçalan kimi təsdiq etmişdi. İlqar texniki peşə məktəbini də fərqlənmə diplomu ilə bitirib.

Az.TV-nin "Biz romantiklərik" adlanan verilişində İlqar Kərimovun texniki-peşə məktəbində yaradıb rəhbərlik etdiyi ansambl dəfələrlə qonaq olmuş, maraqlı proqramla çıxış etmiş və geniş tamaşaçı auditoriyasının diqqətini özünə cəlb etmişdi. O, Şəkinin "Səbuhi" ansamblı ilə, həm də tək solo ifaçı kimi rayon tədbirlərində çıxış edirdi. Hər konsertdə alqışlanan gənc İlqar qarmon sənətinə daha da ürəkdən bağlanırdı.

İlqar Kərimov 1979-1984-cü illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda təhsil alıb. O, təhsil illərində institutun xalq çalğı alətləri ansamblının fəal üzvü olmuş, məşqlərdə diribaşlıq göstərmiş, konsertlərdə, bütün tədbirlərdə çıxış edərək bir qarmon ifaçısı kimi öz ustalığını artırmışdır. Ansamblın rəhbəri Abbasqulu Nəcəfzadə ilə onun arasında dostluq yaranmışdır ki, həmin münasibət bu gün də davam edir. Təhsil illərində o, Abbasqulu müəllimlə el şənliklərinə də gedirdi. İnşaat Mühəndisləri İnstitutunun ansamblında, 1983-cü ildə klarnet ifaçısı Əlikram Quluyev idi. İlqarın qarmon ifası Əlikramın xoşuna gəlmiş və onunla yaradıcılıq əlaqələri qurmuşdu. Həmin illərdə və sonralar onlar birlikdə xeyli toylarda çalmışdılar. Əlaqələr, bir-birlərinə olan inam, etiqad onların arasında dostluq yaradıb.

1978-ci ildən başlayaraq İlqar müxtəlif ansamblllarda çıxış etmişdir. O, Azərbaycan Qastrol-Konsert Birliyinin "Azərbaycan təranələri" xalq çalğı alətləri ansamblında çalırdı. İ.Əbilov adına mədəniyyət evinin "Könül" rəqs ansamblının müşayiətçisi olması da onun inkişafına kömək etmişdir. İ.Kərimovun ən geniş fəaliyyəti xanəndə, xalq artisti Baba Mahmudoğlunun rəhbəri olduğu "Dastan" folklor ansambl və A.Nəcəfzadənin rəhbərlik etdiyi "Günaydın" instrumental ansambl ilə olub. Radioya lentlərin yazılması, televiziyadakı çıxışlar, Dövlət Filarmoniyasında, Respublika sarayındakı konsertlər və rayonlardakı tədbirlər İlqarın musiqiçi kimi formalaşmasında və tanınıb rəğbət qazanmasında mühüm əhəmiyyət kəsb edirdi.

İlqar dəfələrlə dövlət tədbirlərində və bölgələrimizdə məşhur ifaçılarımızla birlikdə çalıb-çağırmışdır. O, keçmiş SSRİ-nin müxtəlif şəhərlərində və xarici ölkələrdə milli musiqimizi ləyaqətlə təmsil etmişdir.

İ.Kərimov Şəkidə yaşadığı illərdə mahir zurna ifaçısı şəkili Əliəfsərlə də toy şənliklərində çıxış etmişdir. Ustad Əliəfsər İlqarın qarmon ifasını çox bəyənirdi.

A.Nəcəfzadənin rəhbərliyilə bir zamanlar fəaliyyət göstərən və populyar olan "Meyxana" ansamblında 1976-1978-ci illərdə İlqar da çalışıb. Meyxana ustası Nizami Rəmzinin və "Meyxana" ansamblının Respublika sarayındakı ilk konsertində ansamblın qarmonçalanı İlqar Kərimov olmuşdur.

İlqar məşhur usta Saşa Zverevlə söhbət apararaq ona qarmon sifariş vermiş, - tonlar əlavə olunmuş alət düzəltdirmişdir. Təbii ki, bu işlə əlaqədar qarmonun qrifində də dəyişiklik edilmiş, dillər (klavişlər) əlavə olunmuşdur. O, özünə və pərəstişkarlarına çox sevimli olan bu qarmonla ərəb, fars, türk və Şərq xalqlarının musiqi nümunələrini incəliklərinə qədər çala bilir. Bəzi musiqiçilər qarmona gətirilmiş bu səs sistemini bəyənmir və ya qəbul etmək istəmirlər. Lakin bütünlükdə götürdükdə həmin pərdələr (səslər) bizim qədim musiqimizdə olmuşdur. Lazım gələn, tələb olunan anlarda - tonlardan istifadə musiqini bayağılaşdırmır, əksinə gözəlləşdirir və emosional gücünü artırır.

İlqarın xatirələrindən: "1990-cı ildə Türkiyəyə səfər etdik. Heyətimizdə Abbasqulu, İlham və Məhərrəm Nəcəfov qardaşları, nağaraçalan Cavanşir Qasımov, mügənnilər Elçin Cəlilov və Səyyad Əlizadə də var idi. Ankara şəhərinin Atatürk stadionunda konsertlərimiz oldu. Azərbaycan xalq musiqisi və bəstəkar əsərlərindən əlavə, proqrama qardaş türk xalq musiqisindən "türkü"lərin bəzilərini əlavə etmişdik. Bunları qarmonda ifa edərkən stadionda alqışlar kəsilmirdi. Bakıdan İrana, oradan da Türkiyəyə köçən tanınmış tarzən Abdulla Qurbani və türk musiqiçiləri konsertdən sonra hotelə, otağımıza gəldilər. Mənim - tonlu qarmonumla maraqlanırdılar. Onların xahişilə qarmonu çaldım. Qarmonda ifa olunan "türkü"lər onlarda xüsusi maraq oyatmışdı. Musiqiçilər deyirdilər ki, Azərbaycandan bizə gətirilən qarmonların heç biri belə deyil, həm də akkordeonlarda belə pərdələr yoxdur. Mən izah edirdim ki, bu qarmonu xüsusi sifarişlə düzəltdirmişəm.

Abdulla Qurbani çox xahiş edirdi ki, bu qarmonu ona satım. Deyirdi ki, sənin qarmonun Türkiyədə çox xoşa gəlib, bu alətdən türk ansambllarında istifadə edəcəyik. Türk musiqiçiləri böyük məbləğdə pul təklif etsələr də, bahalı, komfort maşınla qarmonu dəyişmək istədiklərini bildirsələr də təbii ki, mən razılıq vermədim. Türkiyənin "Raks" firmasının əməkdaşları hotelə gəlib mənimlə söhbət apardılar. Təklif belə oldu ki, qarmonda "türkü"ləri ifa edim, disklərə yazıb satışa buraxsınlar. Bu isə baş tutan iş deyildi. Azərbaycanda 1990-cı ildə hələ Sovet qanunları mövcud idi. Ölkəmiz müstəqillik qazanmamışdı. SSRİ hələ dağılmamışdı. Bizim səfər heyətimizin tərkibində DTK nümayəndəsi və digər məsul şəxslər vardı. İcazəsiz bir addım da atmaq olmazdı". Söhbətin bu yerində mən İlqar bəyə sual verdim: "Siz türküləri havaxt və kimdən öyrənmisiniz?" Cavab belə oldu: "Uşaqlıq illərində Türkiyə radioları ilə verilən konsertləri çox dinləmişəm. Elə bu havaları da o zaman öyrənmişəm. Həmin musiqilər o çağlardan hafizəmə həkk olunub".

İlqar 1992-ci ildə də Türkiyənin ən möhtəşəm şəhərlərində konsert səfərlərində olub. O, sevimli qarmonu ilə yenə də türk tamaşaçılarının könüllərini fəth edib.

Bakı mühitində, musiqi aləmində çalışdığı anlardan İlqar Kərimov məşhur müğənniləri, o sıradan Baba Mahmudoğlu, Gülağa Məmmədov, Teymur Mustafayev, İlhamə Quluyeva, Səfa Qəhrəmanov və Qəndab Quluyevanı müşayiət etmişdir.

Rövşən Ağayevin ssenarisi əsasında "Azərbaycanfilm"in çəkdiyi "Lətifə" filmində (rejissor Nizami Musayev, bəstəkar Cavanşir Quluyev) səslənən qarmon ifaları İlqar Kərimova məxsusdur.

Demək lazımdır ki, İlqar Kərimovun bütün sənət fəaliyyəti qarmon ifaçılığı sənətinin daha da təşəkkül tapmasına və inkişafına xidmət edib. O, hazırda bu sahənin tədqiqi ilə məşğul olmaqla bərabər, ümumiyyətlə qarmon ifaçılığının daha da inkişaf tapmasına xidmət edir.

Mən İlqar bəylə söhbət edərkən ondan maraqlı fikirlər aldım. Xalq musiqimizin qarmonda səslənməsi, qədim oyun havalarının bu alət üçün işlənib hazırlanması barədə mülahizələri və tutarlı izahları məni qane etdi. O, unudulmuş xalq havalarını axtarış apararaq tapmış, yaşayış məskənlərinin adıyla adlanan "Sarıbaş", "Balakən" və "Şəki" rəqslərini lentlərə yazdıraraq radionun fonetekasına vermişdir. İlqar qədim xalq havaları üzərində araşdırmalarını davam etdirir, tapdıqlarını isə qarmona gətirərək məşqlərini aparır. Onu da qeyd edək ki, o, 10-a yaxın lirik melodiyaları ifa edərək radioya təqdim edib.

İlqar Kərimov məsul vəzifələrdə çalışmışdır. 1989-cu ildən "Azərkinovideo" İstehsalat Birliyi Təmir-Tikinti Trestinin müdiri işləmişdir. Sonra isə Mədəniyyət Nazirliyinin Təmir-Tikinti Trestinin müdiri vəzifəsində çalışmışdır. İlqar müəllim həm də iş adamıdır. Özünün şirkəti var. O, "İfan" şirkətinin rəhbəridir.

İlqar Kərimov 1984-cü ildə ailə qurub. İki övladı, iki nəvəsi var. Övladları elmi dərəcəyə yiyələniblər və ali tədris müəssisələrində çalışırlar.

Məqaləni İlqar Kərimovun 55 illiyinə həsr etdiyim şeirlə bitirməyi lazım bildim.

Nümunədir cəmiyyətdə, həyatda,
Təmizliyi, pak xisləti İlqarın.
Tədbirlərdə, hər yerdə, toy-büsatda,
Şən rəftarı, xoş niyyəti İlqarın.

Qəlb sındırmaz, xətrə dəyməz heç zaman,
Doğmalara məhəbbəti bir ümman,
Kimsə dara düşsə, istəsə aman,
Var qayğısı, inayəti İlqarın.

Könlü kimi üzü də daim gülər,
Qəmlinin qəlbindən kədəri silər,
Yaşa dolub, ötüb keçib çox illər,
Dəyişməyib xasiyyəti İlqarın.

Rəhbər olub böyük müəssisəyə,
Xeyli xeyir veribdir bu sahəyə,
Xeyir əməllərlə dönüb örnəyə,
Bax, belədir ülviyyəti İlqarın.

İmkanları geniş olsa da, inan,
Sadədən sadədir, bilin, bu insan,
Kimlərlə bağalayıbsa əhdü-peyman,
Saf olubdur ünsiyyəti İlqarın.

Musiqiçi kimi istedadlıdır,
Erkən tanınıb, şöhrətli, adlıdır,
Sənət aləmində qol-qanadlıdır,
Qarmondur mehri-ülfəti İlqarın.

Heç kəs inciməyib onun sözündən,
Hamı razı kamalından, özündən,
Nur əskik olmaz bir an üz-gözündən,
Apaydındır hüsniyyəti İlqarın.

Maraqlıdır keçdiyi həyat yolu,
Bu hikmətli ömürdür, məna dolu,
Əlli beş yaşında müdrikdir, ulu,
İşıqlıdır zehniyyəti İlqarın.

Ailə başçısı kimi şərəfli,
Övladlar alim, zəngin, hərtərəfli,
Nəvələri var, babadır fərəhli,
Parlaqdır ömür zinəti İlqarın,

Əhsənin dostudur, onun fəxridir,
Sədaqətli, vəfəfalı, istəklidir,
Dostlara. qohumlara gərəklidir,
Səmimidir mahiyyəti İlqarın.

2018